**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**
**KOLLEGİYASI**

# QƏRAR

**№ 52-5**

**Bakı şəhəri** **10 aprel 2019-cu il**

## 2018-ci il ərzində Komitəyə daxil olmuş vətəndaşların təkrar müraciətləri üzrə xidməti yoxlamanın nəticələri barədə

2018-ci il ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə daxil olan 3569 ərizədən 509-unu təkrar müraciətlər təşkil etmişdir. Təkrar müraciətlərin daxil olma səbəbi ilk növbədə mövzuların Komitənin səlahiyyətləri xaricində olmasıdır. İl ərzində ən çox təkrar müraciət müalicə, müayinə və əməliyyat (65 müraciət), mənzil şəraitinin yaxşılaşdırılması (42 müraciət), uşaq tələbi (34 müraciət), ünvanlı sosial yardım (30 müraciət) ilə bağlı məsələlər olmuşdur. Digər ən çox təkrar müraciət edilmiş mövzu (45 ərizə) alimentlə bağlı məhkəmə qərarının icra olunmaması ilə bağlıdır. Həmin ərizələrlə bağlı aidiyyəti üzrə ən çox Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və bu nazirliklərin tabe qurumlarına yazılı və şifahi müraciətlər edilmişdir. Təkrar vətəndaş müraciətləri Komitə tərəfindən nəzarətə götürülmüş və müvafiq qurumdan ərizəçilərlə yanaşı Komitəyə də cavab istənilmişdir. Bundan əlavə təkrar daxil olan ərizələrdən 109-u Komitənin müvafiq şöbələri tərəfindən xidməti məlumatla bağlanılmışdır. Bunlardan 6 ərizə Komitənin imkanları daxilində müsbət, 15 ərizə qismən həll edilmiş, 78 ərizəçiyə isə müfəssəl izahat və müvafiq tövsiyələr verilmişdir.

Vətəndaşların təkrar müraciətləri ilə bağlı daxil olan cavab məktublarının əksəriyyəti izahat xarakterli olur, yəni məsələ həllini tapmamış qalır. Bu isə bir ərizəçi tərəfindən dəfələrlə eyni müraciətin daxil olmasına səbəb olur.

Xidməti yoxlamanın nəticəsindən aydın olmuşdur ki, bir ərizəçi tərəfindən bir neçə müraciətin daxil olması heç də həmişə eyni mövzu ilə bağlı olmur. Ərizəçi bir məsələnin həllindən sonra digər problemlərlə müraciət edir.

2018-ci il ərzində Komitəyə daxil olmuş vətəndaşların təkrar müraciətləri üzrə xidməti yoxlamanın nəticələri barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**Q Ə R A R A   A L I R**

1. 2018-ci il ərzində Komitəyə daxil olmuş vətəndaşların təkrar müraciətləri üzrə xidməti yoxlamanın nəticələri barədə məlumat nəzərə alınsın.
2. Daxil olan vətəndaşların təkrar müraciətləri xüsusi nəzarətdə saxlanılsın və əgər məsələnin müsbət həlli mümkündürsə Komitə əməkdaşları tərəfindən nəticənin əldə edilməsi üçün bütün mümkün tədbirlər görülsün.
3. Daxil olan vətəndaşların təkrar müraciətləri üzrə hər ilin yekunlarına görə xidməti yoxlama təşkil edilsin və nəticələri barədə Komitə sədrinə məlumat verilsin.
4. Qərarın icrası Kadr və kargüzarlıq şöbəsi tərəfindən təmin edilsin.
5. Qərarın icrasına nəzarət Komitənin sədr müavinləri Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya və aparatın rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Hicran Hüseynova**